*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*

*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:12.10.2024*
*Kabul tarihi |Accepted:22.12.2024*
*Yayın tarihi |Published:25.12.2024*

**Əliyusif Məmmədov**

*https://orcid.org/0000-0001-5631-2044*
*Doctor of Philosophy in History, Faculty of Economics and Social Sciences, Baku State University, Azerbaijan, aliyusifmammadov@bsu.edu.az*

*Atıf Künyesi | Citation Info*

Məmmədov, Ə. (2024). Arxiv Fəaliyyəti Sahəsində Metodların və Standartların Beynəlxalq Unifikasiyası. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4596-4609.

# Arxiv Fəaliyyəti Sahəsində Metodların və Standartların Beynəlxalq Unifikasiyası

***Xülasə***

*Müasir dövr insan fəaliyyətinin bütün sahələrində yenilənmə, inkişaf, mükəmməlləşmə və rasionallaşma ilə müşayiət olunur. Bu baxımdan arxiv fəaliyyəti də istisna deyildir. Daha geniş sistem olan sənəd-kommunikasiyalar sisteminin tərkibində bir alt sistem olmaqla arxiv fəaliyyəti Arxiv sahəsində beynəlxalq əlaqələrin əsas elementlərindən biri müxtəlif ölkələr və təşkilatlar arasında qlobal əməkdaşlıqdır.Bu əməkdaşlıq arxiv işçilərinə ən yaxşı təcrübələri, standartları və texnologiyaları inkişaf etdirməyə və tətbiq etməyə yardım edir ki, bu da öz növbəsində arxivlərin fəaliyyətinin keyfiyyətini artırır. Arxiv fəaliyyətində beynəlxalq əlaqələrinin ən mühüm istiqamətlərindən biri arxiv fəaliyyətinin, onun metod və texnologiyalarının unifikasiyasıdır. Bu işin həyata keçirilməsi üçün ilk növbədə beynəlxalq sahə standartları, digər normativ sənədləri yaradılmalıdır və ölkələr bunu unifikasiya etməlidir. Sahə standartların və texnologiyaların unifikasiyasının beynəlxalq əlaqələr aspekti arxiv fəaliyyətində standartların və texnologiyaların unifikasiyasına yardım edir. Bu, müxtəlif ölkələrin arxivləri arasında uyğunluğu və informasiya mübadiləsini təmin etmək üçün vacibdir. Arxiv sənədlərinin və rəqəmsal formatların təsviri qaydaları kimi vahid standartlar arxiv işçilərinə daha səmərəli işləməyə imkan verir və arxiv materiallarının daha geniş auditoriya üçün əlçatan olmasını təmin edir. Məqalədə müasir arxiv*

BY NC
Creative Commons Licence

 

*fəaliyyətinin unifikasiya məsələsi ətraflı nəzərdən keçirilir və ümumiləşdirilir. Sonda istifadə edilmiş ədəbiyyatın siyahısı verilir.*

***Açar sözlər:*** *arxiv, unifikasiya, beynəlxalq əlaqələr, standartlaşdırma, qarşılıqlı əməkdaşlıq, təkmilləşmə*

# International Unification of Methods and Standards in the Field of Archival Activities

***Abstract***

*The modern age brings about renewal, development, perfection and rationalisation in all areas of human activity. Archival activities are no exception in this context. Archival activity, as a subsystem within a wider document-communication system, is one of the main elements of international relations in the field of archives. A key element of international relations in the field of archives is global co-operation between different countries. This co-operation helps archives staff to develop and implement best practices, standards and technologies, which in turn improves the quality of archives' operations. One of the most important aspects of international relations in archival activities is the unification of archival activities, methods and technologies. In order to realise this work, international industry standards and other regulatory documents need to be established and countries need to unify them. The international relations dimension of the unification of field standards and technologies contributes to the unification of standards and technologies in archival activities. This is important for ensuring compatibility and exchange of information between archives in different countries. Uniform standards, such as rules for the description of archival documents and digital formats, allow archival staff to work more efficiently and guarantee the availability of archival materials to a wider audience. The article discusses and summarises the unification of modern archival activities in detail. Finally, a list of the literature used is given.*

***Keywords:*** *archives, unification, international relations, standardisation, mutual cooperation, improvement*

## Giriş

Arxiv fəaliyyəti bəşəriyyətin mədəni və tarixi irsinin qorunmasında mühüm rol oynayır. Arxivlər keçmişə şahidlik edən əvəzsiz sənədləri qoruyur və elmi tədqiqatlar, təhsil layihələri və idarəetmə qərarlarının qəbul edilməsi üçün lazım olan informasiyalara əlyetərliyi təmin edir. Bununla belə, qloballaşma və informasiya texnologiyalarının sürətli inkişafı şəraitində arxivlər informasiyanın rəqəmsallaşdırılması, informasiya təhlükəsizliyinin təmin edilməsi və müxtəlif standartların və praktiki nailiyyətlərin tətbiqi və inteqrasiyasının zərurəti kimi yeni problemlərlə üzləşir. Bu baxımdan, arxiv fəaliyyəti sahəsində beynəlxalq əlaqələr getdikcə daha artıq əhəmiyyət

daşıyır və aktuallaşır. Beynəlxalq arxiv əlaqələri mədəni irsin qorunub saxlanması və yayılmasında, eləcə də peşəkar standartların və təcrübələrin inkişafında əsas rol oynayır. Arxivlər bəşəriyyətin tarixi yaddaşının ayrılmaz hissəsidir və beynəlxalq əməkdaşlıq onların səmərəli idarə olunmasına və əlçatan olmasına yardım edir. Arxiv işinin yüksək keyfiyyəti və səmərəliliyi üçün bu sahədə standartların olmasından və onların unifikasiyadan asılıdır. Məqalədə məhz arxiv fəaliyyətinin unifikasiyası məsələsinıə diqqət yetirilir, bunun əhəmiyyəti izah edilir, unifikasiyanın hansı müsbət effekt verməsi təfərrüatlı şəkildə təhlil edilir.

## 1. Mövzunun tədqiqat metodları

Mövzunun tədqiq edilməsinin metodiki əsaslarının yüksək əhəmiyyət kəsb etməsi şübhəsizdir. Bunu nəzərə alaraq mövzunun tədqiqi üçün hipotetiko-deduktiv metoddan, müqayisəli təhlil metodundan və kontent analiz metodundan istifadə edilmişdir. Hipotetiko-deduktiv metod kontent analiz metodunda ilk növbədə hipoteza-fərziyyə irəli sürülür. Onun əsası ondan ibarətdir ki, arxiv fəaliyyəti üçün sahəvi normalar, qaydalar, standartlar müstəsna əhəmiyyət kəsb edir. Standartlaşma və normalaşdırmanın inkişaf qanunauyğunluğu bizə məlum olduğundan bunun yaradılması, tətbiqi və unifikasiya miqyasının lokal-milli səviyyədən regional səviyyəyə, onun ardınca isə beynəlxalq-qlobal səviyyəyə doğru inkişaf etdiyini fərz edilmişir. Bu hipotezanın yoxlanılması üçün müxtəlif mənbələr, onların məzmunu araşıdırıəlmışdır. Bu zaman kontent analiz metodu tətbiq edilmişdir. Bunun ardınca müqayisəli təhlil metodu ilə toplanan məlumatlar təhlil edilərək nəticə çıxarılmışdır.

## 2. Mövzu üzrə ədəbiyyatın icmalı

Arxiv işinin yüksək keyfiyyəti və səmərəliliyi əsas şərti olan sahə üzrə normaların, standartların, metodları və onların vahid biçimə gətirilərək unifikasiyası məsələsi ildən-ilə daha yüksək aktuallıq kəsb etməkdədir və bu səbəbdən bir çox tədqiqatçılar öz əsərlərində həmin məsələyə diqqət yetirirlər. Bu suallar həm MDB ölkələrinin, həm də Avropa və ABŞ mütəxəssisləri tərəfindən xeyli dərəcədə tədqiq edilmişdir. Məsələn, belə müəlliflərdən Aleksandr Vaşutinin, İrina Pankratovanın, Vladimir Severtsovun, İvan Matyuşevin əsərlərində arxiv işinin nəzəri və praktiki aspektlərinə, o cümlədən bu fəliyyətin standartlaşdırması, unifikasiyası və iş metodlarının normalaşdırlması məsələlərinə xeyli diqqət yetirilmişdir.

Məsələn, 2000-ci ildə amerikanın tanınmış arxiv mütəxəssisi Rendal Cimersonun redaktəsi altında ABŞ-da nəşr edilmiş “Amerika Arxiv Tədqiqatları” adlı elmi məcmuədə arxiv işinin

müxtəlif problemlərinə, o cümlədən standartlaşdırma və unifikasiya edilməsinə dair 28 məqalə dərc edilmişdir (Jimerson, 2020). Daha sonra, ukraynalı tədqiqatçılar L. Popova və A Xromov özlərinin 2022-ci ildə dərc edilmiş "Arxiv işi sahəsində standartlaşdırma: beynəlxalq təcrübə və Ukraynada harmonizasiya problemləri" adlı məqalələrində arxiv işi sahəsində standartlaşdırmanın müxtəlif məqamlrını, hıəmin işin Ukraynada tətbiqini ətraflı təhlil etmişlər (Popova & Khromov, 2022). Rusiyalı tədqiqatçı İ. Matyuşev isə özünün 2022-ci ildə nəşr edilmiş "Rusiya Federasiyasında idarəetmə və arxivləşdirmə üçün sənəd dəstəyinin standartlaşdırılması" kitabında arxiv fəaliyyətinin nəzəri və praktiki məsələlərini tədqiq etmiş, bu iş üzrə normativ sənədlərin icmalını verirmişdir (Martyushev, 2022). 2019-cu ildə keçirilmiş "İnformasiya cəmiyyətində sənədləşmə: rəqəmsal transformasiya kontekstində mühasibat uçotu və arxivləşdirmə" adlı XXVI Beynəlxalq Elmi-Praktik Konfransın bir sıra materialları məhz arxiv işində normalaşma və standartlaşdırma məsələlərinə həsr edilmişdir (Documentation in information society: records and archives management at the age of digital transformation, 2019**)**. Bu konfransın materiallar məcmuəsində digərləri ilə yanaşı bizim mövzumuz üçün maraq kəsb edən aşağıdakı üç məqalələri dərc edilmişdir.

Həmçinin, bir sıra alimlərin əsərlərində bu istiqamətdə kompleks şəkildə araşdırmalar aparılmış, sənəd axınına dair elmi-tədqiqat əsərləri xarici indeksləşdirilmiş jurnallarda dərc olunaraq, ixtisasçı kadrların müxtəlif informasiya tələbatlarının ödənilməsinə və elmi potensialının inkişafına öz müsbət təsirini göstərmişdir. Bunlara misal olaraq: (İsmayilov & Khalafova, 2022a; İsmayilov & Khalafova, 2022b; İsmayilov, 2022; İsmayilov & Khalafova, 2022; İsmayilov & Bayramova, 2022; İsmayilov, Mahammadli & Khudiyeva, 2022; İsmayilov & Khudiyeva, 2022; İsmayilov & Ganbarova, 2022; İsmayilov & Gasimli, 2022; İsmayilov & Guliyev 2022; İsmayilov; Sadigova, 2022; İsmayilov & Gasimli, 2023; İsmayilov & Mammadov, 2023; İsmayilov & Əfəndiyev, 2023; İsmayilov & Khalafova, 2023a; İsmayilov & Khalafova, 2023b; İsmayilov, İslamov & Yusifova, 2024; İsmayilov & Khalafova, 2024a; İsmayilov & Khalafova, 2024b; Khalafova & İsmayilov, 2024) müəlliflərin əsərlərini qeyd edə bilərik. Arxiv işi sahəsində standartlaşdırma, metodiki unifikasiya və rasionallaşdırma bir sıra digər tədqiqatçıların da araşdırma mövzusudur (Nosova, 2022; Topaz, 2019).

### 3. Yeni dövrün çağırışları və arxiv işi sahəsində beynəlxalq əməkdaşlıq bu fəaliyyətin vacib komponenti kimi

Arxiv müəssisələri, bu sahədə peşəkar assosiasiyalar və dövlət təşkilatları arasında beynəlxalq əməkdaşlıq xüsusilə XX əsrin sonu və XXI əsrin əvvəllərində qarşıya çıxan problemlərin effektiv həllinə və arxivlərin idarə edilməsinə ümumi yanaşmalara imkan verir. Beynəlxalq əməkdaşlıq bu sahə üzrə standartların uyğunlaşdırılmasına, təcrübə və bilik mübadiləsinə, arxiv materiallarının qorunması və istifadəsi üçün innovativ həllərin birgə işlənib hazırlanmasına yardım edir. Beynəlxalq səviyyədə qarşılıqlı əlaqə arxiv işçilərinə dəyişən şəraitə uyğunlaşmağa və qabaqcıl təcrübələri həyata keçirməyə yardım edir ki, bu da öz növbəsində arxiv müəssisələrinin keyfiyyətini yaxşılaşdırır və arxiv kolleksiyalarının tədqiqatçılar və geniş ictimaiyyət üçün əlyetərliyi artırır.

XX əsrin sonu və XXI əsrin əvvəllərində intensivləşməsi müşahidə edilən hərbi münaqişələr, iqlim dəyişməsi nəticəsində baş verən təbii fəlakətlər və digər fövqəladə hallar kontekstində mədəni irsin qorunması və qorunması üçün beynəlxalq əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq təşkilatların və hökumətlərin birgə səyləri dağıdılma nəticəsində zədələnmiş arxivlərin bərpası və nadir sənədlərin təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyətin həyata keçirilməsinə imkan verir. Belə layihələrə misal olaraq Yuqoslaviya, İraq, Əfqanıstan, ən son zamanlarda isə Ukrayna, Suriya və digər ölkələrdə arxivlərin dağıdıldığı və ya zədələndiyi arxivlərin bərpasını göstərmək olar. Bundan əlavə, beynəlxalq əməkdaşlıq arxiv işçilərinin təhsilinin inkişafına və peşəkarlığının artırılmasına öz töhfəsini verir. Beynəlxalq konfranslar, seminarlar və davamlı təhsil kursları arxiv işçilərinə təcrübə mübadiləsi aparmaq, ən son tədqiqat və texnologiya haqqında öyrənmək və digər ölkələrdən olan həmkarları ilə peşəkar şəbəkələr yaratmaq imkanı verir. Bu da öz növbəsində mütəxəssislərin ixtisasının artırılmasına, arxiv müəssisələrində qabaqcıl iş üsullarının tətbiqinə yardım edir. Beynəlxalq əməkdaşlıq üçün eyni dərəcədə vacib cəhət arxiv fəaliyyəti ilə bağlı hüquqi və etik məsələlərin həllidir. Beynəlxalq əməkdaşlıq bütün tərəflərin maraqlarını nəzərə alan və arxiv materiallarının sahiblərinin və istifadəçilərinin hüquqlarının qorunmasına yardım edən hüquqi bazaların işlənib hazırlanmasına və razılaşdırılmasına imkan verir. Buraya müəllif hüquqları, şəxsi informasiyaların mühafizəsi və informasiyalara çıxış məsələləri daxildir. Məhz bu səbəbdən həmin istiqamətdə işlər beynəlxalq kooperasiya vasitəsilə, sahənin qlobal təşkilatlarının qüvvəsi ilə həll edilir. Bu işdə ən nüfuzlu və daha çox fəallıq göstərən

iki təşkilatın adını çəkmək olar. Bunlar aşağıdakılardır: Beynəlxalq Arxivlər Şurası --International Council on Archives (ICA) Qlobal miqyasda arxiv fəaliyyəti üzrə əsas təşkilat sayılan bu qurum Parisdə, Fransada yerləşir. ICA dünya arxiv irsinin qorunması, inkişafı və istifadəsini təşviq edir. Kargüzarlıq İdarəetmə Trastı--Records Management Trust International Records Management Trust (IRMT): Bu təşkilat qlobal miqyasda kargüzarlıq sənədlərinin idarə edilməsi və arxiv praktikasına diqqət yetirir. Bundan başqa dünyanın iqtisadi baxımdan inkişaf etmiş bir sıra ölkələrində fəaliyyət göstərən milli arxiv təşkilatları yüksək beynəlxalq nüfuza malikdir bu sahə üzrə beynəlxalq əməkdaşlığın təşkilində fəal iştirak edirlər. Belə təşkilatlara ABŞ, Fransa, Böyük Britaniya, İtaliya, Avstraliya və bir sıra digər ölkələrin milli arxiv təşkilatlarını misal göstərmək mümkündür.

## 4. Müasir dövrdə arxiv fəaliyyətində standartlaşdırma və unifikasiyanın xüsusiyyətləri və beynəlxalq əməkdaşlıq

Arxiv fəaliyyətində beynəlxalq əlaqələrin əhəmiyyətini üzə çıxaran bir neçə mühüm cəhətləri qeyd etmək zəruridir.

### 4.1. Arxiv fəaliyyətində beynəlxalq standartlaşdırma və unifikasiyanın təşkilati bazası

Arxiv sahəsində beynəlxalq əlaqələrin əsas elementlərindən biri müxtəlif ölkələr və təşkilatlar arasında qlobal əməkdaşlıqdır. Beynəlxalq Arxivlər Şurası (ICA) kimi beynəlxalq arxiv assosiasiyaları dünyanın hər yerindən olan peşəkarlar arasında təcrübə və bilik mübadiləsi üçün ən münasib platformadır. Bu əməkdaşlıq arxiv işçilərinə ən yaxşı təcrübələri, standartları və texnologiyaları inkişaf etdirməyə və tətbiq etməyə yardım edir ki, bu da öz növbəsində arxivlərin fəaliyyətinin keyfiyyətini artırır.

### 4.2. Standartların və texnologiyaların unifikasiyası

Arxiv fəaliyyətində beynəlxalq əlaqələrinin ən mühüm istiqamətlərindən biri arxiv fəaliyyətinin, onun metod və texnologiyalarının unifikasiyasıdır. Bu işin həyata keçirilməsi sahə üzrə mövcud olan milli və beynəlxalq peşə təşkilatlarının daimi olaraq diqqət mərkəzindədir və uzun müddətdir ki, bu qurumlar arxiv işi üzrə beynəlxalq sahə standartları, onlara uyğun olaraq milli standartlar, digər normativ sənədlər yaradırlar və tətbiq edirlər. Bu fəaliyyətin əsas məqsədlərindən biri arxiv fəaliyyətinin unifikasiyasıdır. Bu termin bir çox dillərdə olduğu kimi azəri dilinə də latın dilindən keçmişdir və mənası “ümumi bir qaydaya salmaq, hamısını bir şəklə,

qaydaya salma" kimi izah edilir (Azərbaycan dilinin izahlı lüğəti, 2006). Unifikasiya praktiki fəaliyyət, iqtisadiyyat, elm və texnologiya kimi müxtəlif sahələrdə əhəmiyyətli faydalar gətirir. Məsələn, praktik fəaliyyətdə bu səmərəliliyin artması ilə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün tələb olunan vaxtı və resursları azaldır, layihənin idarə edilməsini asanlaşdırır və məhsuldarlığı artırır, səhvlərin baş vermə ehtimalını azaldır, birgə fəaliyyətə rəvac verir. Məsələn, texnologiyada unifikasiya qarşılıqlı işləməyi təmin etməklə müxtəlif sistemlər və cihazlar arasında qarşılıqlı əlaqəni təmin edərək, onların inteqrasiyasını və qarşılıqlı fəaliyyətini asanlaşdırır, Elmdə təhsildə, praktiki fəaliyyətin bit çox sahələrində informasiya mübadiləsini sadələşdirir, elmi informasiyanın və metodların qarşılıqlı uyğunlaşması ilə müxtəlif ölkələrin və təşkilatların alimlərinə tədqiqat nəticələrini asanlıqla paylaşmağa və layihələr üzərində əməkdaşlıq etməyə imkan verir və s. Buna görə də heç də təsadüfi deyildir ki, arxiv fəaliyyətində də unifikasiyaya böyük əhəmiyyət verilir (Ismayilov & Khalafova, 2023). Arxiv fəaliyyəti üzrə sahəvi standartların və texnologiyaların unifikasiyası artıq qlobal miqyas almışdır. Bu işin beynəlxalq əlaqələr aspekti arxiv fəaliyyətində standartların və texnologiyaların unifikasiyasına yardım edir. Bu, müxtəlif ölkələrin arxivləri arasında uyğunluğu və informasiya mübadiləsini təmin etmək üçün vacibdir. Arxiv sənədlərinin və rəqəmsal formatların təsviri qaydaları kimi vahid standartlar arxiv işçilərinə daha səmərəli işləməyə imkan verir və arxiv materiallarının daha geniş auditoriya üçün əlçatan olmasını təmin edir (Paşayev & Ağayev, 2012). Hal-hazırda qlobal miqyasda arxiv işi sahəsində fəaliyyətin standartlaşdırılması və unuifikasiyası gündəlikdə olan əsas məsələlərdəndir. Bu mövzu üzrə həyata keçirilən beynəlxalq proqram və layihələrə aşağıdakıları misal göstərmək olar.

**4.3.Arxivlərin Beynəlxalq İnkişafı Fondu - Fund for the International Development of Archives (FIDA):** Beynəlxalq Arxiv Şurası (ICA) tərəfindən dəstəklənən bu layihə məhdud resursları olan ölkələrdə arxiv institutlarını inkişaf etdirmək məqsədi daşıyır. FIDA arxiv idarəçiliyini təkmilləşdirməyə və mühüm tarixi sənədləri qorumağa kömək edən layihələr üçün qrantlar təqdim edir.

**4.4.Qeydlərin və Arxivlərin İdarə Olunması Proqramı- Records and Archives Management Program (RAMP)**: YUNESKO tərəfindən də dəstəklənən bu layihə arxiv institutları, funksiyaları və təhsili ilə bağlı çox sayda tədqiqatlara sponsorluq edir və dərc edir. RAMP beynəlxalq arxivləşdirmə protokollarını və standartlarını formalaşdırmağa yardım edir.

**4.5.Beynəlxalq Arxiv Həftəsi - International Archives Week (IAW):** Bu, təcrübə mübadiləsi və arxiv fəaliyyətinin standartlaşdırılması və unifikasiyası məsələlərini müzakirə etmək üçün dünyanın hər yerindən arxivçiləri bir araya gətirən, ICA tərəfindən təşkil edilən illik tədbirdir.

**4.6.Fəlakətlər zamanı Yardım Fondu- Disaster Relief Fund (DRF):** ICA tərəfindən də dəstəklənən bu fond arxiv materiallarının bərpasına və qorunmasına kömək etməklə, arxiv qurumlarına fəlakətdən xilas olmaq üçün yardım göstərir.

Arxiv fəaliyyətində standartların və texnologiyaların unifikasiyası arxiv materiallarının beynəlxalq səviyyədə təhlükəsizliyinin, əlyetərliyinin və uyğunluğunun təmin edilməsində əsas rol oynayır. Qloballaşma və rəqəmsal transformasiya kontekstində unifikasiya müxtəlif qurumlar və ölkələr arasında effektiv arxiv idarəçiliyi və informasiya mübadiləsi üçün mühüm vasitəyə çevrilir. Arxiv fəaliyyətində standartların və texnologiyaların unifikasiyasının vacibliyi və təşkilinin əsas aspektlərini nəzərdən keçirək.

**4.7. Standartların unifikasiyasının verdiyi fayda**

Arxiv fəaliyyətində standartların unifikasiyası bir sıra üstünlüklər verir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar.

- **Qarşılıqlı fəaliyyət və informasiya mübadiləsi**

Arxiv işi sahəsində unifikasiyanın əsası kimi vahid standartlar müxtəlif ölkələrin və qurumların arxivlərinə informasiyaların keyfiyyətini və bütövlüyünü itirmədən informasiya və sənədlər mübadiləsi aparmağa imkan verir. Bu, beynəlxalq tədqiqat layihələri və müxtəlif mənbələrdən arxiv materiallarına çıxış tələb edən istifadəçilər üçün xüsusilə vacibdir. Bu əsnada tədqiqatçı A. İ. Topazın qeyd etdiyi bir məqama diqqət yetirmək lazımdır. O göstərir ki, son 20 ildə kargüzarlıq və arxiv işində bir çox müsbət proseslər qeyd edilmiş, xüsusən də sənəd sistemlərinin öyrənilməsi ilə bağlı yeni tədqiqatlar meydana çıxmışdır. Onların da nəticələri bu sahədə daha qabaqcıl texnologiyaları sənədlərin həyat dövrünün bütün mərhələlərində, o cümlədən arxivə köçürmə proseslərində yaradılması və emalı proseslərində, saxlanmasında, istifadəsində tətbiq etməyə imkan vermişdir. Bu proseslər arxiv elminin konseptual-terminoloji aparatının dəyişməsini və onun yenidən yaranmasına səbəb olmuşdur (Topaz, 2019). Təbii ki, arxiv sahəsinin mütəxəssisləri bu istiqamətdə yeni yaranan normativ sənədlərə, o cümlədən standartlara daim diqqət göstərməli və onlar qəbul edildikdən dərhal sonra praktikada tətbiqini təşkil etməlidirlər.

- **Arxiv informasiya resurslarının qorunması**

Informasiyaların saxlanması və emalı üsullarının standartlaşdırılması arxiv materiallarının uzunmüddətli mühafizəsini təmin etməyə yardım edir. Vahid standartlar təcrübə nəticəsində sübut edilmiş texnologiya və metodlardan istifadə etməyə imkan verir ki, bu da informasiyaların itirilməsi riskini azaldır və arxiv fondlarının etibarlılığını artırır (İsmayilov; Mammadov, 2023).

- **Arxiv fəaliyyətinin səmərəliyi**

Vahid standartlar arxiv materiallarının kataloqlaşdırılması, ikinci səviyyəli informasiyanı özündə əks etdirən digər informasiya-axtarış sistemlərinin, onlardan ibarət elektron informasiya massivlərinin (ilkin sənəd-informasiya resurslarının yaradılması, rəqəmsallaşdırılması və əldə edilməsi (istifadəçilərin informasiya tələbatının ödənilməsi) proseslərini xeyli dərəcədə sadələşdirir. Bu, arxiv işçilərinə daha səmərəli işləməyə və əmək, vaxt, texniki resurslara qənaət etməyə imkan verir.

- **Hüquqi və etik müdafiə**

Standartların unifikasiyası arxiv fəaliyyəti ilə bağlı hüquqi və etik məsələlərin həllinə yardım edir. Ümumi qaydalar və qəbul edilmiş proseduralar arxiv materiallarının sahiblərinin və istifadəçilərinin hüquqlarının müdafiəsini, sənədlərlə işləməkdə etik prinsiplərə riayət olunmasını təmin edir. Bu şərt xüsusilə də varisləri həyatda olan ayrı-ayrı görkəmli simaların şəxsi arxivlərindəki materiallardan istifadə zamanı əhəmiyyət kəsb edir. Arxiv işçiləri nəzarət etməlidir ki, belə fondlardakı sənədlərdən istifadə edən tədqiqatçılar bu sənədlərdə qarşılarına çıxan və həmin şəxsin həyatının, fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən məqamların ictimaiyyətləşdirilməi diqqətli olsunlar, diqqətli və həssas olsunlar, bu şəxslərin nüfuzuna, xatirəsinə xələl gətirə biləcək faktları cəmiyyətə çatdırmasınlar.

- **Arxiv fəaliyyəti vasitəsi ilə mədəni irsin saxlanması və qorunması**

Mədəni irsin saxlanması və qorunmasında beynəlxalq əlaqələr mühüm rol oynayır. Qloballaşma və sürətli texnoloji dəyişikliklər dövründə arxivlər rəqəmsal mühafizə və kibertəhlükələrdən qorunma kimi yeni problemlərlə üzləşirlər. Beynəlxalq əməkdaşlıq arxiv materiallarını müxtəlif təhlükələrdən qorumaq, habelə zədələnmiş və ya itirilmiş sənədləri bərpa etmək və qorumaq üçün strategiya və tədbirlərin işlənib hazırlanmasına yardım edir.

- **Arxiv fəaliyyəti vasitəsi ilə biliyin toplanmas və yayılması**

Beynəlxalq əlaqələr arxiv materiallarının tədqiqatçılar və daha geniş auditoriya üçün əlçatanlığını artırmağa yardım edir. Arxivlərin rəqəmsallaşdırılması və kataloqlaşdırılması üzrə birgə layihələr istifadəçilərin müxtəlif ölkələrdən sənədlərə daxil ola biləcəyi qlobal informasiya bazaları və on layn platformalar yaradır. Bu da öz növbəsində bilik və mədəni mübadilənin yayılmasına yardım edir.

- **Arxiv fəaliyyəti vasitəsi ilə təhsil və peşəkar inkişaf**

Arxiv sahəsində beynəlxalq əməkdaşlıq arxiv işçilərinin təhsili və peşəkarlığının artırılması üçün imkanlar açır. Beynəlxalq konfranslar, seminarlar və təkmilləşdirmə kursları mütəxəssislərə təcrübə və bilik mübadiləsi aparmağa, ən son tədqiqatlar və texnologiyalar haqqında informasiya əldə etməyə imkan verir. Bu, arxiv işçilərinin ixtisaslarının yüksəldilməsinə və peşəkarlıq səviyyəsinin yüksəlməsinə töhfə verir ki, bu da arxiv müəssisələrinin işinin keyfiyyətinə birbaşa təsir göstərir.

- **Arxiv fəaliyyəti vasitəsi ilə hüquqi və etik məsələlərin həlli**

Beynəlxalq əlaqələr arxiv fəaliyyəti ilə bağlı hüquqi və etik məsələlərin həllinə yardım edir. Arxivlər tez-tez müəllif hüquqları, şəxsi informasiyaların qorunması və digər hüquqi məsələlərlə bağlı problemlərlə üzləşirlər. Beynəlxalq əməkdaşlıq bütün tərəflərin maraqlarını nəzərə alan və arxiv materiallarının sahiblərinin və istifadəçilərinin hüquqlarının qorunmasına yardım edən hüquqi bazaların işlənib hazırlanmasına və razılaşdırılmasına imkan verir.

- **Arxiv fəaliyyəti vasitəsi ilə humanitar aspektlər və arxivlərin bərpası**

Təbii fəlakətlər, müharibələr və digər fövqəladə hallar nəticəsində zədələnmiş arxivlərin bərpası üzrə humanitar layihələrdə beynəlxalq əlaqələr mühüm rol oynayır. Beynəlxalq təşkilatların və hökumətlərin birgə səyləri mühüm tarixi sənədlərin qorunmasına və arxiv fondlarının bərpasına yardım edir. Belə layihələrə misal olaraq İraq, Əfqanıstan və münaqişələrdən əziyyət çəkən digər ölkələrdə arxivlərin bərpasını göstərmək olar. 2024-cü ilin sonunda Suriya Ərəb Respublikasında baş verən hadisələrlə əlaqədar olaraq gözləmək olar ki, bu ölkədə də arxiv işinin dünya ictimaiyyətinin diqqət və qayğısına ehtiyacı vardır.

- **Arxiv fəaliyyəti və iqtisadi, eləcə də sosial inkişaf**

Arxivlər iqtisadi və sosial inkişafa mühüm təsir göstərir, bu sahədə beynəlxalq əlaqələr müxtəlif layihə və təşəbbüslərin həyata keçirilməsinə öz töhfəsini verir. Birgə tədqiqatlar və

proqramlar tarixin sosial-iqtisadi aspektlərini tədqiq edə, mədəni irsin idarə edilməsində yeni yanaşmalar inkişaf etdirə, tədqiqatçılar və ictimaiyyət üçün arxiv materiallarına çıxışı yaxşılaşdıra bilər. Tədqiqatlar göstərir ki, arxivlərin fəaliyyətinin təkmilləşdirilməsinə, innovativləşdirilməsinə çəkilən xərclər son nəticədə ölkədə iqtisadi dirçəlişə yardım edir (Nosova, 2022).

**4.8. Arxiv işi sahəsində standartların unifikasiyası**

Arxiv işi sahəsində standartların unifikasiyasının təşkili prosesinə gəldikdə isə arxiv fəaliyyətində standartların unifikasiyası prosesinin təşkili müxtəlif beynəlxalq və milli təşkilatların iştirakını, eləcə də arxiv işçiləri ilə əlaqəli sahələr üzrə mütəxəssislərin fəal əməkdaşlığını tələb edir. İndi isə arxiv fəaliyyətinin unifikasiya prosesinin təşkilinin əsas mərhələlərini və aspektlərini bir qədər detallı şəkildə nəzərdən keçirərək onun ayrı-ayrı məqamlarına aydınlıq gətirək.

**4.9.Arxiv fəaliyyəti üzrə unifikasiya ilə məşğul olan təşkilatlar və birliklər və onların verdiyi effekt**

Unifikasiya prosesinin əsas hərəkətverici qüvvələrindən biri Beynəlxalq Arxivlər Şurası (ICA) və YUNESKO kimi beynəlxalq təşkilatlardır. Bu təşkilatlar arxiv işi üzrə beynəlxalq standartları hazırlayır və yayır, təcrübə və qabaqcıl təcrübə mübadiləsi üçün konfrans və seminarlar keçirir, milli səviyyədə birləşmə layihələrini dəstəkləyir.

Milli Arxiv Xidmətləri: Milli səviyyədə arxiv xidmətləri və komitələri beynəlxalq standartların yerli şəraitə və tələblərə uyğunlaşdırılmasında mühüm rol oynayır. Onlar milli standartlar hazırlayır, arxiv işçilərinin peşə hazırlığını həyata keçirir və onlara dəstək verir, arxiv müəssisələrində standartlara riayət olunmasına nəzarət edir.

*Arxiv fəaliyyəti üzrə təhsil proqramları və ixtisasartırma kursları*

Unifikasiyanın mühüm aspekti arxiv işçilərinin və əlaqəli sahələr üzrə mütəxəssislərin hazırlanmasıdır. Beynəlxalq və milli təşkilatlar arxiv işçilərinə yeni standartlar və texnologiyaların mənimsənilməsinə yardım edən təhsil proqramları, təkmilləşdirmə kursları və təlimlər təşkil edir.

*Arxiv fəaliyyəti üzrə yeni texnologiyaların hazırlanması və tətbiqi*

Müasir texnologiyalardan istifadə etmədən standartların unifikasiyası mümkün deyil. Bura arxiv kolleksiyalarının kataloqlaşdırılması, rəqəmsallaşdırılması və idarə edilməsi üçün proqram təminatının hazırlanması və tətbiqi, həmçinin informasiyaların təhlükəsizliyini və əlçatanlığını təmin etmək üçün bulud texnologiyaları və süni intellekt sistemlərindən istifadə daxildir.

*Arxiv fəaliyyəti üzrə pilot layihələr və sınaqlar*

Standartlar və texnologiyalar genişmiqyaslı tətbiqdən əvvəl sınaq sınaq mərhələsindən keçir. Bu, mümkün problem və çatışmazlıqları müəyyən etməyə, habelə standartları arxiv müəssisələrinin konkret şəraitinə və ehtiyaclarına unifikasiya etməyə imkan verir. Arxiv fəaliyyəti üzrə effektivliyin monitorinqi və qiymətləndirilməsi Standartların uğurlu unifikasiyası üçün onların tətbiqinin effektivliyinin müntəzəm monitorinqini və qiymətləndirilməsini aparmaq lazımdır. Buraya informasiyaların toplanması və təhlili, audit və təftişlərin aparılması, dəyişən şərtlərə və tələblərə cavab vermək üçün standartların tənzimlənməsi daxildir.

Nəzərdən keçirdiyimiz məqamlar arxiv fəaliyyətində unifikasiyanın və standartlaşmanın nə qədər vacib olduğunu bir daha təsdiq edir. Bu məsələ o qədər detallı və geniş əhatəlidir ki, onu bir ölkənin daxilində, həmin ölkənin mütəxəssislərinin qüvvəsi ilə həll etmək xeyli müşkül məsələdir (İsmayilov & Sadigova, 2022).

**Nəticə**

Arxiv fəaliyyəti sahəsində beynəlxalq əlaqələr bəşəriyyətin mədəni irsinin qorunub saxlanılması, mühafizəsi və yayılması üçün böyük əhəmiyyət kəsb edir. Beynəlxalq səviyyədə əməkdaşlıq peşəkar standartların inkişafına yardım edir, hüquqi və etik məsələləri həll edir, arxiv materiallarının geniş auditoriyaya çatdırılmasını təmin edir. Beynəlxalq səviyyədə arxiv materiallarının təhlükəsizliyini, əlyetərliyini və uyğunluğunu təmin etmək üçün arxiv fəaliyyətində iş metodlarının, standartların və texnologiyaların, o cümlədən rəqəmsallaşdırma protokollarının unifikasiyası böyük əhəmiyyət kəsb edir. Bu, arxivlərin səmərəli idarə olunmasına, informasiyaların və istifadəçi hüquqlarının qorunmasına, arxiv işçilərinin peşəkar bacarıq və ixtisaslarının inkişafına yardım edir. Beynəlxalq əməkdaşlıq və müxtəlif təşkilatların və mütəxəssislərin iştirakı uğurlu əməkdaşlıq prosesinin əsas elementləridir ki, bu da arxiv işini daha mükəmməl həyata keçirməyə imkan verir. Arxiv mütəxəssisləri qloballaşma və rəqəmsal transformasiya şəraitində gələcək nəsillər üçün arxiv resurslarının qorunmasını və səmərəli istifadəsini təmin etməkdən ötrü beynəlxalq layihə və təşəbbüslərdə fəal iştirak etməlidirlər.

**Ədəbiyyat Siyahısı**

*Azərbaycan dilinin izahlı lüğəti.* (2006). (IV. C). Şərq-Qərb.

Ismayilov, N. & Khalafova, S. (2023b). The Modern Situation of Using Bibliometric Methods in Library-Information Activity in the Republic of Azerbaijan. *Scientific and Theoretica Almanac Grani, 26* (2), 106-110. https://doi.org/10.15421/172333

Ismayilov, N. I & Khalafova, S. A. (2023a). On the typology of document-information resources in the field of economy. *Universidad Y Sociedad, 15* (6), 224-232.

Ismayilov, N. I. & Khalafova, S.A. (2022b). Library Sites that Provide Information to Users (Based on Domestic and Foreign Library Experience). *GRANI Journal*, 25 (29), 22-28.

Ismayilov, N. I. & Guliyev, O. (2022) Creation and formation of information resources for children. *Technium Social Sciences*, 36, 735-742.

Ismayilov, N. I. & Khudiyeva, V. (2022). Assessment of digital knowledge and research skills and overview of on going work at the national level, forecasting. *Concepts of digitization - Technium Social Sciences,* 35, 593-600.

Ismayilov, N. I. & Bayramova, İ. (2022). Methodology of Research and Study of Document Flow in the Field of Tourism (Based on Experience from Local Libraries). *GRANI Journal,* 25 (3), 70-76.

Ismayilov N. I & Khalafova S.A. (2022). The role of digital marketing in the management of library information resources. *академічний огляд, 2* (57). 194-202.

Ismayilov, N. I. & Gasimli, H. (2022). The main activities of the Republic's Tourism Information Centers. *GRANI Journal*, 25 (6), 16-22.

Ismayilov, N. I. & Khalafova, S. A. (2022a). General Characteristics of Local Lore Documental Network Resources of the Libraries of Azerbaijan (Based on library collection). *Technium Social Sciences Journal*, 33 (1), 628-637.

Ismayilov, N. I. & Mammadov, A.(2023). National Libraries: Typology, Main Functions and Modern Directions of Development. *GRANI Journal*, 26 (1), 15-20.

Ismayilov, N. I. & Sadigova, S. (2022). Synergetic foundations of the methodology of modern bibliography. *GRANI Journal*, 26 (59, 45-51.

Ismayilov, N. I. (2022). Library Resources: Allocation and Usage Problems (Comparative Analysis of the World and Regional Practice). *Dnipropetrovsk: Scientific and Theoretical Almanac "Grani"*1 (26), 38-43.

Ismayilov, N., Mahammadli, D., & Gasimli, H. (2023). Characteristics of the Library-Information Service in the Republic of Azerbaijan in A Poly-Ethnic Condition (based on the example of Sheki-Zagatala economic region). *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (3), 878-890.

İsmayılov, X.İ. & Gasimli, H. H. (2023). Study of the document flow on the field of tourism in the national library of Azerbaijan named after M. F. Akhundov (Based on the analysis of "Annual

Azerbaijan Bibliography" and "New books: an annotated bibliographic index"). *Akademik Tarih ve Düsünce Dergisi, 6* (10), 2467-2474.

İsmayılov, N. & Khalafova, S. (2024a). Stages of development of documentary resources from language studies in Azerbaijan. *Scientific and theoretical almanac Grani*, *27* (2), 70-75. https://doi.org/10.15421/172433

Jimerson, R. C. (Ed.). (2000). *Archival Studies: Readings in Theory and Practice. Chicago: Society of American Archivists*. Society of American Archivists.

,

Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu (1999). *Xalq qəzeti.*

Nosova, A. M. (2022). Arkhivy v arkhive ekonomicheskoy reformy shifra. Nauchnoye soobshchestvo uchashchikhsya XXI shkoly. *Tekhnicheskiye materialy: spetsial'naya shkola obrazovaniya po materialam CXX studencheskaya vzaimoblokiruyushchaya prakticheskaya konferentsiya. Tom 12* (118). 76-80.

Paşayev A. Ə. & Ağayev, K. B.(2012). *Azərbaycan Respublikasının Dövlət arxivlərinin əsas iş qaydaları*. Çaşıoğlu.

Popova, L., & Khromov, A. (2022). Standardızatıon ın the field of archıval affaırs: ınternatıonal experıence and problems of harmonızatıon ın Ukrine. *Administrative Law and Process, 4* (35), 5-19. https://doi.org/10.17721/2227-796X.2021.4.01

Topaz, A. YA. (2019). Sobraniye deloproizvodstva i arkhivov v terminologicheskikh standartakh: koordinatsionnyy aspekt.*Vestnik Volgogradskogo universiteta.* 2, Epizod 1. *18* (3), 217–226. https://doi.org/10.15688/jvolsu 2.2019.3